عقيدة كل مسلم

الشيخ/ محمد بن جميل زينو

# HƏR BİR MÜSƏLMANIN ƏQİDƏSİ

Şeyx:  Muhəmməd ibn Cəmil Zeynu

Tərcümə: Əlixan Musayev

Bakı: 2014

Peyğəmbər ﷺ demişdir: "Kim "lə ilahə illəllah" desə və Allahdan qeyrisinə ibadət etməyi inkar etsə, onun malı və canı toxunulmaz olar. (Gizli əməllərinin) haqq-hesabı isə Allaha aiddir".

Muslim, 130.

**Bu kitab Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin razılığı ilə çap edilmişdir.**

**(DK-07/B 04.02.2014)**

## *Mərhəmətli və Rəhmli Allahın adı ilə!*

Həqiqətən, şükür və tərif yalnız Allaha məxsusdur! Biz Ona həmd edirik, Onu köməyə çağırırıq, Ondan bağışlanma və bizi doğru yola yönəltməyi diləyirik, nəfslərimizin şərindən və pis əməllərimizdən qorunmaq üçün yalnız Ona pənah aparırıq. Allah kimə hidayət verərsə onu azdıran tapılmaz, kimi azdırarsa onu doğru yola yönəldən tapılmaz. Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə haqqı olan məbud yoxdur, Onun şəriki yoxdur və şahidlik edirəm ki, Muhəmməd Onun qulu və elçisidir.

**Sual** **Allah bizi nə üçün yaradıb?**

**Cavab** Allah bizi yaradıb ki, yalnız Ona ibadət edək və heç bir şeyi Ona şərik qoşmayaq.

**Ayə** **“Mən cinləri və insanları ancaq Mənə ibadət etmək üçün yaratdım!”** (əz-Zariyat, 56).

**Hədis** **“Allahın qulları üzərindəki haqqı, qulların Ona ibadət edib heç kəsi Ona şərik qoşmamalarıdır.”** (əl-Buxari və Muslim).

**Sual** **Allaha necə ibadət etməliyik?**

**Cavab** Allaha ixlasla (ibadəti məhz Ona məxsus edərək), Onun və Peyğəmbərinin ﷺ buyurduğu kimi ibadət etməliyik.

**Ayə** **“Halbuki onlara, dini məhz Allaha məxsus edərək, həniflər kimi ibadət etmək, namaz qılmaq və zəkat vermək əmr olunmuşdu.”** (əl-Beyyinə, 5).

**Hədis** **“Bizim işimizə** [dinimizə] **müvafiq olmayan bir əməl edən kimsənin etdiyi əməl rədd olunur.”** (Muslim).

**Sual** **Məgər Allaha qorxu və istəklə ibadət etməliyik?**

**Cavab** Bəli, biz Allaha qorxu və istəklə ibadət etməliyik.

**Ayə** **“Allaha qorxu və ümidlə yalvarın.”** Yəni, Cəhənnəmindən qorxmaqla və Cənnətinə ümid bəsləməklə. (əl-Əraf, 56).

**Hədis** **“Mən Allahdan Cənnət istəyirəm və atəşdən** [Cəhənnəm əzabından] **Ona pənah aparıram.”** (Əbu Davud - «səhih»dir).

**Sual** **İbadətdə ehsan nə deməkdir?**

**Cavab** Bu, Allahın bizi daim gördüyünü və bizə nəzarət etdiyini etiqad etmək deməkdir.

**Ayə** **“Həqiqətən, Allah sizə nəzarət edir.”** (ən-Nisa, 1).

**Hədis** **“(Ehsan odur ki,) Allaha, sanki Onu görürmüşsən kimi ibadət edəsən. Sən Onu görməsən də, (bil ki,) O səni görür.”** (Muslim).

**Sual** **Allah nə üçün peyğəmbərlər göndərmişdir?**

**Cavab** Allah peyğəmbərləri ona görə göndərib ki, insanları Allaha ibadət etməyə və heç bir şeyi Ona şərik qoşmamağa dəvət etsinlər.

**Ayə** **“Biz hər ümmətə: “Allaha ibadət edin, tağutdan uzaq olun”– *deyə*, elçi göndərdik.”** (ən-Nəhl, 36).

**Hədis** **“(Əslində) peyğəmbərlər ata bir, ana ayrı övladlardır. Anaları ayrı olsa da, dinləri birdir.”** Yəni, hər bir peyğəmbər insanları tövhidə dəvət etmişdir. (əl-Buxari, Muslim).

**Sual** **Üluhiyyə tövhidi nədir?**

**Cavab** Bu, Allahı dua, nəzir, hökm və bu kimi ibadətlərdə təkləşdirməkdir.

**Ayə** **“Bil ki, Allahdan başqa *ibadətə layiq olan* heç bir məbud yoxdur.”** (Muhəmməd, 19).

**Hədis** **“Onların yanına vardığın zaman onları Allahdan başqa *(ibadətə haqqı olan)* məbudun olmadığına və Muhəmmədin Onun elçisi olduğuna şəhadət verməyə dəvət et.”** (əl-Buxari).

**Sual** **«Lə ilahə illəllah»ın mənası nədir?**

**Cavab** Mənası: «Allahdan başqa həqiqi (ibadətə layiq olan) məbud yoxdur».

**Ayə** **“Bu belədir. Çünki Allah Haqdır. *Kafirlərin* Ondan başqa ibadət etdikləri isə batil *bütlərdir*.”** (Loğman, 30).

**Hədis** **“Kim “lə ilahə illəllah” desə və Allahdan qeyrisinə ibadət etməyi inkar etsə, onun malı və canı toxunulmaz olar. (Gizli əməllərinin) haqq-hesabı isə Allaha aiddir.”** (Muslim).

**Sual** **“Ad və sifətlər tövhidi” nə deməkdir?**

**Cavab** Bu, Allah və Onun elçisinin Allaha aid isbat etdiyi bütün ad və sifətləri isbat etmək, inkar etdiklərini isə inkar etmək, onların düzgün mənalarını, nəyə dəlalət etdiklərini, məxluqata göstərdiyi təsirini və tələblərini təsdiq etməkdir.

**Ayə** **“Onun heç bir bənzəri yoxdur. O, Eşidəndir, Görəndir.”** (əş-Şura, 11).

**Hədis** **“Uca və Ulu Rəbbimiz hər gecənin axır üçdə birində dünya səmasına enir...”** Yəni, Özünə layiq olan şəkildə enir. (əl-Buxari, Muslim).

**Sual** **Tövhidin müsəlmana olan səmərəsi nədir?**

**Cavab** Hər bir müsəlman tövhidi qəbul etməklə dünyada haqq yola yönəlir, axirətdə isə əmin-amanlıqda olur.

**Ayə** **“İman gətirdikdən sonra imanlarına zülm qatışdırmayanları əmin-amanlıq gözləyir. Doğru yola yönəlmişlər də məhz onlardır.”** (əl-Ənam, 82).

**Hədis** **“Qulların Allah üzərindəki haqqı isə, Ona heç nəyi şərik qoşmayan qullarına əzab verməməsidir.”** (əl-Buxari və Muslim).

**Sual** **Allah haradadır?**

**Cavab** Allah səmanın üstündə ərşin üzərindədir.

**Ayə** **“Mərhəmətli *Allah* Ərşə ucaldı.”** (Ta ha, 5).

**Hədis** **“Allah məxluqatı yaratdığı zaman Öz yanında Ərşin üzərində yerləşən Kitabında *(Lövhi-Məhfuzda)* Özünə aid belə yazmışdır: “Həqiqətən də, Mənim rəhmətim qəzəbimi üstələyir!”** (əl-Buxari).

**Sual** **Allah zatı ilə bizimlədir, yoxsa Onun elmi bizimlədir?**

**Cavab** Şübhəsiz ki, Allahın elmi bizimlədir. O hər şeyi görür və eşidir.

**Ayə** **“*Allah* buyurdu: “Qorxmayın, çünki Mən sizinləyəm, eşidirəm və görürəm!”** Yəni, sizi hifz etməklə, sizə qələbə bəxş etməklə və sizə yardım etməklə *sizinləyəm.* (Ta ha, 46).

**Hədis** **“Doğrusu siz *hər şeyi* Eşidəni, *sizə* yaxın olanı çağırırsınız! Və O, (həmişə) sizinlədir.”** Yəni, Allah elmi ilə *sizinlədir,* o sizi eşidir və görür. (əl-Buxari və Muslim).

**Sual** **Ən böyük günah nədir?**

**Cavab** Ən böyük günah Allaha şərik qoşmaqdır.

**Ayə** **“Bir zaman Loğman öz oğluna nəsihət edərək demişdi: “Oğlum! *Allaha* şərik qoşma. Həqiqətən, Allaha şərik qoşmaq böyük zülmdür!”** (Loğman, 13).

**Hədis** **“Abdullah (ibn Məsud) ﵁ demişdir: “(Bir dəfə) mən Peyğəmbərdən ﷺ soruşdum ki: “Hansı günah Allah yanında ən böyük (günah) sayılır?” Dedi: “Allah səni yaratdığı halda (başqa birisini) Ona tay tutmağın!”** (əl-Buxari, Muslim).

**Sual** **Ən böyük şirk nədir?**

**Cavab** İbadəti Allahdan qeyrisinə etmək ən böyük şirkdir.

**Ayə** “*Ya Peyğəmbər!* **De: “Mən yalnız öz Rəbbimə dua edirəm və kimisə Ona şərik qoşmuram!”** (əl-Cinn, 20).

**Hədis** **“Günahların ən böyüyü Allaha şərik qoşmaq, valideynlərin üzünə ağ olmaq və yalandan şahidlik etməkdir.”** (əl-Buxari, Muslim).

**Sual** **Ən böyük şirkin zərəri nədir?**

**Cavab** Ən böyük şirk əbədi Cəhənnəmdə qalmağa səbəb yaradır.

**Ayə** **“Həqiqətən də, Allaha şərik qoşan kimsəyə, Allah Cənnəti haram etmiş və onun sığınacağı yer Oddur.”** (əl-Maidə, 72).

**Hədis** **“Kim Allaha şərik qoşub ölərsə, Cəhənnəmə girər.”** (Muslim).

**Sual** **Şirk etdiyi halda insanın digər yaxşı əməlləri ona fayda verə bilərmi?**

**Cavab** Xeyr, şirk ola-ola yaxşı əməl öz sahibinə heç cür fayda verə bilməz.

**Ayə** **"Əgər *Ona* şərik qoşsaydılar, əlbəttə, etdikləri əməllər puç olardı."** (əl-Ənam, 88).

**Hədis** **"Allah təbarəkə və təalə belə buyurur: "Mən şəriklikdən uzağam. Kim bir əməl edər və o əməldə Məndən qeyrisini mənə şərik qoşarsa həm onu, həm də etdiyi şirki tərk edərəm."** (Muslim, «qüdsi hədis»dir).

**Sual** **Müsəlmanlar arasında şirk mövcuddurmu?**

**Cavab** Bəli, təəssüflər olsun ki, mövcuddur, özü də çox.

**Ayə** **"Onların çoxu ancaq şərik qoşaraq Allaha iman gətirir."** (Yusif, 106).

**Hədis** **"...Ümmətimdən olan bəzi qəbilələr müşriklərə qoşulmayınca və ümmətimdən olan bəzi qəbilələr bütlərə ibadət etməyincə Qiyamət qopmayacaqdır..."** (ət-Tirmizi - «səhih»dir).

**Sual** **Məgər dua Uca Allah üçün edilən ibadətdir?**

**Cavab** Bəli, dua Uca Allah üçün edilən ibadətdir.

**Ayə** **“Rəbbiniz dedi: “Mənə dua edin, Mən də sizə cavab verim. Həqiqətən, Mənə ibadət etməyə təkəbbür göstərənlər Cəhənnəmə zəlil olaraq girəcəklər.”** (Ğafir, 60).

**Hədis** **“Dua ibadətdir.”** (ət-Tirmizi - «səhih»dir).

**Sual** **Ölülər duanı eşidirlərmi?**

**Cavab** Xeyr, ölülər duanı eşitmirlər!

**Ayə** **“Sözsüz ki, sən nə ölülərə *haqqı* eşitdirə bilərsən, nə də dönüb gedən karlara çağırışı çatdıra bilərsən.”** (ən-Nəml, 80).

**“Dirilərlə ölülər də eyni deyillər. Şübhəsiz ki, Allah istədiyinə *haqqı* eşitdirir. Sən isə qəbirlərdə olanlara eşitdirə bilməzsən.”** (Fatir, 22).

**Hədis** **“Həqiqətən, Allahın yer üzünü səyahət edən mələkləri vardır ki, onlar ümmətimin salamını mənə çatdırırlar.”** (ən-Nəsai - «səhih»dir).

**Sual** **Ölüdən və ya qeybdə olandan kömək diləyə bilərikmi?**

**Cavab** Xeyr, ölüdən və ya qeybdə olandan kömək diləmək olmaz! Əksinə, biz yalnız Allahdan kömək diləməliyik.

**Ayə** **"O vaxt siz Rəbbinizdən kömək diləyirdiniz. O da: "Mən sizə bir-birinin ardınca gələn min mələklə yardım edəcəyəm"– deyə duanızı qəbul etmişdi."** (əl-Ənfal, 9).

**Hədis** **"Peyğəmbərə ﷺ bir narahatlıq və ya bir müsibət üz verdikdə deyərdi: "Ey [əbədi] Yaşayan, ey Qəyyum [kainatı yaradan və onu idarə edən, bəndələrinin işlərini yoluna qoyan və onları qoruyan]! Mərhəmətinlə kömək diləyirəm..."** (əl-Hakim - «həsən»dir).

**Sual** **Allahdan qeyrisindən kömək diləmək olarmı?**

**Cavab** Xeyr! Allahdan qeyrisindən kömək diləmək olmaz.

**Ayə** **“Biz yalnız Sənə ibadət edir və yalnız Səndən kömək diləyirik.”** (əl-Fatihə, 5).

**Hədis** “[Bir şey] **istəsən yalnız Allahdan istə, kömək diləsən yalnız Allahdan dilə!”** (ət-Tirmizi - «həsən, səhih»dir).

**Sual** **Aramızda olan dirilərdən kömək istəyə bilərikmi?**

**Cavab** Bəli, yalnız səni eşitdikləri təqdirdə və qadir olduqları işlərdə bizə köməklik göstərməyi onlardan istəyə bilərik.

**Ayə** **“Yaxşılıq etməkdə və Allahdan qorxmaqda bir-birinizə yardım edin. Günah işlər görməkdə və düşmənçilik etməkdə bir-birinizə köməkçi olmayın.”** (əl-Maidə, 2).

**Hədis** **“Qul** [Allah bəndəsi] **öz qardaşına kömək etdikcə Allah ona kömək edər.”** (Muslim).

**Sual** **Allahdan qeyrisi üçün nəzir etmək olarmı?**

**Cavab** Allahdan qeyrisi üçün nəzir etmək olmaz.

**Ayə** **“Bir zaman İmranın arvadı demişdi: “Ey Rəbbim! Mən bətnimdəkini Sənə qul olmaq üçün nəzir etdim. Məndən qəbul et! Həqiqətən, Sən Eşidənsən, Bilənsən.”** (Ali-İmran, 35).

**Hədis** **“Kim Allaha itaət etməyi nəzir etmişsə, qoy Ona itaət etsin. Kim Ona asi olmağı nəzir etmişsə, Ona asi olmasın.”** (əl-Buxari).

**Sual** **Allahdan qeyrisi üçün qurban kəsmək olarmı?**

**Cavab** Allahdan qeyrisi üçün qurban kəsmək olmaz, çünki bu böyük şirkdir.

**Ayə** **“Sən də Rəbbin üçün namaz qıl və qurban kəs!”** [Belə ki, qurbanı yalnız Allah üçün kəsmək lazımdır.] (əl-Kəusər, 2).

**Hədis** **“Allahdan qeyrisinə qurban kəsənə Allah lənət eləsin!”** (Muslim).

**Sual** **Qəbirləri təvaf etmək caizdirmi?**

**Cavab** Kəbədən başqa heç bir yeri təvaf etmək olmaz.

**Ayə** **“Sonra həcc ayinlərini tamamlasınlar, nəzirlərini yerinə çatdırsınlar və qədim Evi təvaf etsinlər.”** Yəni, Kəbəni təvaf etsinlər. (əl-Həcc, 29).

**Hədis** **“Kim Evi** (Kəbəni) **yeddi dəfə təvaf edər, *sonra* iki rükət namaz qılarsa bir qul azad etmiş sayılar.”** (İbn Macə - «səhih»dir).

**Sual** **Qəbirə tərəf namaz qılmaq caizdirmi?**

**Cavab** Xeyr, qəbirə tərəf namaz qılmaq olmaz.

**Ayə** **“Sən üzünü Məscidulharama tərəf çevir!”** (əl-Bəqərə, 144).

**Hədis** **“Qəbirlərin üzərində oturmayın və onlara tərəf namaz qılmayın.”** (Muslim).

**Sual** **Sehr etməyin hökmü nədir?**

**Cavab** Sehr etmək küfrdür.

**Ayə** **“Süleyman kafir olmadı. Lakin şeytanlar sehri və Babildə Harut və Marut adlı iki mələyə nazil olanı insanlara öyrədərək kafir oldular.”** (əl-Bəqərə, 102).

**Hədis** **Peyğəmbər ﷺ demişdir: “Həlakedici yeddi günahdan çəkinin!” Soruşdular: “Ya Rəsulullah, nədir onlar?” Peyğəmbər ﷺ buyurdu: “Allaha şərik qoşmaq, sehirbazlıq...”** (əl-Buxari və Muslim).

**Sual** **Kahinin və ya bilicinin yanına getmək olarmı?**

**Cavab** Onların yanına getmək olmaz.

**Ayə** **“Şeytanların kimə nazil olduqlarını sizə xəbər verimmi? Onlar hər bir yalançıya və günahkara nazil olarlar. *Şeytanlar vəhydən* eşitdiklərini *kahinlərə* təlqin edirlər. Halbuki onların əksəriyyəti yalançıdır!”** (əş-Şuəra, 221-223).

**Hədis** **“Kim hər hansı bir bilicinin yanına gələr və ondan istənilən bir şey barəsində soruşarsa qırx gün namazı qəbul olunmaz!”** (Muslim).

**Sual** **Kahinə və qeybdən xəbər verənə inana bilərikmi?**

**Cavab** Qeybdən verdikləri xəbərləri təsdiq etməməliyik.

**Ayə** **“De: “Allahdan başqa göylərdə və yerdə olanların heç biri qeybi bilməz.”** (ən-Nəml, 65).

**Hədis** **“Kim qeybdən xəbər verənin, yaxud kahinin yanına gəlib onların dediklərini təsdiqləyərsə artıq Muhəmmədə nazil olana** [Qurana] **küfr etmiş olar.”** (Əhməd - «səhih»-dir).

**Sual** **Kimsə qeybdə olanları bilirmi?**

**Cavab** Qeybdə olanları Allahdan başqa heç kəs bilmir.

**Ayə** **“Qeybin açarları Onun yanındadır, Onları yalnız O bilir.”** (əl-Ənam, 59).

**Hədis** **“Qeybdə olanları Allahdan başqa heç kəs bilmir.”** (ət-Təbərani - «həsən»dir).

**Sual** **Müsəlmanlara nə ilə hökm vermək vacibdir?**

**Cavab** Müsəlmanlara şəriət məsələlərində Quran və Peyğəmbərin ﷺ sünnəsi ilə hökm vermək vacibdir.

**Ayə** **"Onların aralarında Allahın *sənə* nazil etdiyi *Kitabla* hökm ver!.."** (əl-Maidə, 49).

**Hədis** **"Hakim məhz Allahdır və dönüş də yalnız Onadır."** (Əbu Davud - «həsən»dir).

**Sual** **Allahdan qeyrisinə and içmək olarmı?**

**Cavab** Xeyr, Allahdan qeyrisinə and içmək olmaz.

**Ayə** **"De: "Xeyr, Rəbbimə and olsun ki, siz mütləq dirildiləcəksiniz."** (ət-Təğabun, 7).

**Hədis** **"Kim Allahdan qeyrisinə and içərsə artıq şirk etmiş olar."** (Əhməd - «səhih»dir).

**Sual** **Şəfa niyyəti ilə həmayil (göz muncuğu və s.) və tilsimlər asmaq olarmı?**

**Cavab** Onları asmaq olmaz, çünki bunu etmək şirkdir.

**Ayə** **"Əgər Allah sənə bir zərər vurmaq istəsə, bunun qarşısını Ondan başqa heç kəs ala bilməz."** (əl-Ənam, 17).

**Hədis** **"Kim** [gözdəymədən və s. qorunmaq üçün] **tilsim asarsa artıq şirk etmiş olar."** (Əhməd - «səhih»dir).

**Sual** **Uca Allaha nə ilə təvəssül etməliyik?**

**Cavab** Allaha saleh əməllərlə, Onun ad və sifətləri ilə təvəssül etməliyik.

**Ayə** **“Ən gözəl adlar Allahındır. Ona bu adlar vasitəsi ilə dua edin...!”** (əl-Əraf, 180).

**Hədis** **“Allahım!.. Sənə, Özünə verdiyin və ya Kitabında nazil etdiyin yaxud yaratdıqlarından kiməsə öyrətdiyin yaxud da Öz yanında olan qeyb elmində saxladığın Özünə aid olan hər bir adla yalvarıram...”** (Əhməd - «səhih»dir).

**Sual** **Dua etdikdə yaradılanların vasitəçiliyinə ehtiyac olurmu?**

**Cavab** Xeyr, dua etdikdə yaradılanların vasitəçiliyinə ehtiyac olmur.

**Ayə** **“Qullarım səndən Mənim barəmdə soruşsalar, Mən *onlara* yaxınam, Mənə yalvaranın duasını yalvardığı vaxt qəbul edərəm.”** (əl-Bəqərə, 186).

**Hədis** **“Doğrusu siz *hər şeyi* Eşidəni, *sizə* yaxın olanı çağırırsınız! Və O, (həmişə) sizinlədir.”**

Yəni, Allah elmi ilə *sizinlədir,* o sizi eşidir və görür. (əl-Buxari və Muslim).

**Sual** **Peyğəmbərin ﷺ vasitəçiliyi nədir?**

**Cavab** Peyğəmbərin ﷺ vasitəçiliyi Allahın ona nazil etdiyini təbliğ etməkdir.

**Ayə** **“Ey Elçi! Rəbbindən sənə nazil ediləni təbliğ et!”** (əl-Maidə, 67).

**Hədis** **Peyğəmbərin ﷺ səhabələri: “Biz şəhadət gətiririk ki, artıq sən təbliğ etdin, *öhdənə düşəni* yerinə yetirdin və nəsihət etdin!”-söylədikdə o üç dəfə: “Allahım şahid ol!”-demişdir.** (Muslim).

**Sual** **Peyğəmbərin ﷺ şəfaətini kimdən istəməliyik?**

**Cavab** Biz Peyğəmbərin ﷺ şəfaətini yalnız Allahdan istəməliyik.

**Ayə** **“De: “Şəfaət bütünlüklə Allaha məxsusdur.”** (əz-Zumər, 44).

**Hədis** **“Allahım, onu mənə şəfaətçi et!”** Yəni, Peyğəmbəri ﷺ. (ət-Tirmizi - «həsən»dir).

**Sual** **Allahı və Onun Rəsulunu ﷺ necə sevməliyik?**

**Cavab** Məhəbbət itaət etməklə və buyuruqları yerinə yetirməklə həqiqi məhəbbət hesab olunur.

**Ayə** **“De: “Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın.”** (Ali-İmran, 31).

**Hədis** **“Canım Əlində olan Allaha and olsun ki, sizdən biriniz məni valideynindən, övladından və bütün insanlardan çox istəməyincə, iman gətirmiş olmaz.”** (əl-Buxari və Muslim).

**Sual** **Peyğəmbəri ﷺ mədh etdikdə mübaliğə edə (həddi aşa) bilərikmi?**

**Cavab** Peyğəmbəri ﷺ mədh etdikdə mübaliğə etmək olmaz.

**Ayə** **“De: “Mən də sizin kimi bir insanam. Mənə vəhy olunur ki, sizin məbudunuz Tək olan İlahdır.”** (əl-Kəhf, 110).

**Hədis** **“Xristianlar Məryəm oğlunu şişirtdikləri kimi, siz də məni şişirtməyin! Mən sadəcə Allahın quluyam. Elə isə (mənə): “Allahın qulu və rəsulu!”- deyin.”** (əl-Buxari).

**Sual** **İlk yaradılan məxluq kimdir?**

**Cavab** İnsanlardan Adəm ﷺ, əşyalardan isə qələm ilk yaradılmış məxluqdur.

**Ayə** **“Bir zaman sənin Rəbbin mələklərə belə demişdi: “Mən palçıqdan bir insan yaradacağam.”** (Sad, 71).

**Hədis** **“Həqiqətən, Allahın yaratdığı ilk məxluq qələmdir.”** (Əbu Davud, ət-Tirmizi - «həsən, səhih»dir).

**Sual** **Muhəmməd ﷺ nədən xəlq edilib?**

**Cavab** Allah Muhəmmədi ﷺ nütfədən xəlq etmişdir.

**Ayə** **“Sizi torpaqdan, sonra nütfədən, sonra laxtalanmış qandan yaradan Odur...”** (Ğafir, 67)

**Hədis** **“Sizlərdən hər kəs anasının bətnində xəlq edilərkən ilk qırx gün ərzində nütfə halında, sonrakı qırx gündə qan laxtası, daha sonrakı qırx gündə isə ət parçası olur.”** (əl-Buxari və Muslim).

**Sual** **Allah yolunda cihad etməyin hökmü nədir?**

**Cavab** Allah yolunda malla, canla və dillə cihad etmək vacibdir.

**Ayə** **“*Sizə* yüngül *gəlsə də*, ağır *gəlsə də*, döyüşə çıxın, malınız və canınızla Allah yolunda cihad edin! Biləsiniz ki, bu sizin üçün daha xeyirlidir.”** (ət-Tovbə, 41).

**Hədis** **“Müşriklərə qarşı həm malınızla, həm canınızla, həm də dilinizlə cihad edin!”** (Əbu Davud - «səhih»dir).

**Sual** **Möminlər üçün dostluq nə deməkdir?**

**Cavab** Bu, möminləri və muvahhidləri (tövhid əhlini) sevmək və onlara köməklik göstərmək deməkdir.

**Ayə** **“Mömin kişilərlə mömin qadınlar bir-birinin dostlarıdır.”** (ət-Tövbə, 71).

**Hədis** **Peyğəmbər ﷺ: “Möminlər bir bina kimidirlər, bir-birilərini dəstəkləyirlər”– dedi və barmaqlarını bir-birinə keçirtdi.”** (əl-Buxari və Muslim).

**Sual** **Kimdir həqiqi vəli (dost)?**

**Cavab** Həqiqi vəli yalnız Allahdan qorxan mömindir.

**Ayə** **“Şübhəsiz ki, Allahın dostlarının heç bir qorxusu yoxdur və onlar kədərlənməyəcəklər. Onlar iman gətirmiş və *Allahdan* qorxmuşlar.”** (Yunus, 62, 63).

**Hədis** **“Mənim dostum ancaq Allah və əməlisaleh möminlərdir.”** (əl-Buxari və Muslim).

**Sual** **Allah Quranı nə üçün nazil edib?**

**Cavab** Allah Quranı nazil edib ki, onu oxuyub əməl edək.

**Ayə** **“Rəbbinizdən sizə nazil edilənə tabe olun. Onu qoyub başqa dostlara uymayın. Siz necə də az öyüd-nəsihət dinləyirsiniz.”** (əl-Əraf, 3).

**Hədis** **“Quran oxuyun və ona əməl edin, onu atıb getməyin və onda mübaliğə etməyin, onu qazanc mənbəyinə çevirməyin və onu mənimsəməyin!”** (Əhməd - «səhih»dir).

**Sual** **Hədislərsiz, yalnız Quranla kifayətlənə bilərikmi?**

**Cavab** Yalnız Quranla kifayətlənmək Allahın qoyduğu şəriətə, Peyğəmbərin ﷺ və onun ardıcıllarının tutduğu yola ziddir.

**Ayə** **“Sənə də Zikri nazil etdik ki, insanlara, onlara nazil olanı izah edəsən və bəlkə onlar fikirləşələr.”** (ən-Nəhl, 44).

**Hədis** **“Doğrusu mənə Quranla birlikdə onun mislində olan** [Sünnə] **verildi!”** (Əbu Davud - «səhih»dir).

**Sual** **Hər hansı bir sözü Allahın və Onun rəsulunun sözündən önə keçirə bilərikmi?**

**Cavab** Heç bir sözü onların sözündən üstün hesab etmək olmaz.

**Ayə** **“Ey iman gətirənlər! *Heç bir şeydə* Allahı və Onun Elçisini qabaqlamayın. Allahdan qorxun!”** (əl-Hucurat, 1).

**Hədis** **“Allaha asi olaraq *kiməsə* itaət etmək olmaz! Yalnız *asilik olmayan* yaxşı işlərdə itaət etmək olar!”** (əl-Buxari və Muslim).

**Sual** **Aramızda mübahisə düşsə nə etməliyik?**

**Cavab** Mübahisə düşəndə Qurani Kərimə və səhih sünnəyə dönmək vacibdir.

**Ayə** **“Əgər bir şey haqqında mübahisə etsəniz, Allaha və Axirət gününə inanırsınızsa, Allaha və *Onun* Elçisinə müraciət edin. Bu, *sizin üçün* daha xeyirli və nəticə etibarilə daha yaxşıdır.”** (ən-Nisa, 59).

**Hədis** **“Sizə iki şeyi tərk edirəm ki, onlardan yapışsanız heç vaxt haqq yoldan azmayacaqsınız. Bu, Allahın kitabı və peyğəmbərinin sünnəsidir.”** (Malik - «səhih»dir).

**Sual** **Dində olan «bidət» nədir?**

**Cavab** Şəriətdə (Quran və Sünnədə) dəlili olmayan hər bir şey bidətdir.

**Ayə** **“Yoxsa onların Allahın dində izin vermədiyi şeyləri onlar üçün şəriət qanunu edə bilən şərikləri vardır?”** (əş-Şura, 21).

**Hədis** **“Bizim işimizə *dinimizə* ondan olmayan bir yenilik gətirənin gətirdiyi rədd edilir».** Yəni, qəbul olunmur. (əl-Buxari və Muslim).

**Sual** **Dində gözəl «bidət» varmı?**

**Cavab** Xeyr! Dində gözəl «bidət» yoxdur.

**Ayə** **“Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və bir din olaraq sizin üçün İslamı bəyənib seçdim.”** (əl-Maidə, 3).

**Hədis** **“Sizə *dinə əlavə edilən* yeniliklərdən çəkinməyi əmr edirəm! Həqiqətən, hər bir yenilik bidətdir və hər bir bidət də zəlalətdir.”** (Əbu Davud - «səhih»dir).

**Sual** **İslamda gözəl «sünnə» varmı?**

**Cavab** Bəli, İslamda gözəl «sünnə» var. Xeyirxah işi birinci etməkdə nümunə olan şəxs kimi.

**Ayə** **“Onlar deyərlər: “Ey Rəbbimiz! Bizə gözümüzün aydınlığı olan zövcələr və övladlar bəxş et və bizi müttəqilərə imam et!”** Yəni, xeyirxah işlərdə nümunə et! (əl-Furqan, 74).

**Hədis** **“Kim İslamda *unudulmuş* gözəl bir sünnəni bərpa edərsə, ona həm öz əməlinin, həm də ondan sonra həmin sünnəyə əməl edənin savabı qədər savab yazılar.”** (Muslim).

**Sual** **İnsan öz nəfsini islah etməklə kifayətlənə bilərmi?**

**Cavab** İnsan həm öz nəfsini, həm də yaxınlarını islah etməlidir.

**Ayə** **“Ey iman gətirənlər! Özünüzü və ailənizi yanacağı insanlar və daşlar olan oddan qoruyun!”** (ət-Təhrim, 6).

**Hədis** **“Hər biriniz himayəçisiniz və hər biriniz himayəsində olanlara cavabdehdir. Əmir himayədardır və o, öz rəiyyətinə cavabdehdir. Kişi öz ailəsinin hamisidir və o, öz himayəsində olanlara cavabdehdir…”** (əl-Buxari).

**Sual** **Müsəlmanlar nə zaman qələbə çalacaqlar?**

**Cavab** Müsəlmanlar yalnız Allahın Kitabına və Peyğəmbərinin ﷺ sünnəsinə əməl etdikdə qələbə çalacaqlar.

**Ayə** **“Ey iman gətirənlər! Əgər siz Allaha (Onun dininə) kömək göstərsəniz, O da sizə kömək göstərər və ayaqlarınızı möhkəmlədər.”** (Muhəmməd, 7).

**Hədis** **“Ümmətimdən bir qrup insan Qiyamət gününədək haqq üzərində vuruşaraq qələbə çalmaqda davam edəcəkdir.”** (Muslim).

**Sual** **Peyğəmbərlərdən ﷺ sonra ən fəzilətli insanlar kimlərdir?**

**Cavab** Onlar peyğəmbərin ﷺ səhabələridir.

**Ayə** **“Dində hamını ötüb keçən ilk mühacirlərə və ənsarlara, həmçinin yaxşı işlər görməkdə onların ardınca gedənlərə gəlincə, Allah onlardan razıdır, onlar da Ondan razıdırlar.”** (ət-Tovbə, 100).

**Hədis** **“Ən xeyirli insanlar mənim dövrümdə yaşayan insanlardır; sonra onların ardınca**

**gələnlər, sonra da onların ardınca gələnlərdir.”** (əl-Buxari və Muslim).

**Sual** **Ən fəzilətli səhabələr kimlərdir?**

**Cavab** *Ən fəzilətli səhabələr* Əbu Bərk, sonra Ömər, sonra Osman, sonra isə Əlidir (Allah onların hamısından razı qalsın).

**Ayə** **“Əgər siz *Peyğəmbərə* kömək etməsəniz, *bilin ki,* Allah ona artıq kömək göstərmişdir. O vaxt kafirlər onu iki nəfərdən ikincisi olaraq *Məkkədən* çıxartdılar. O iki nəfər mağarada olarkən *onlardan* biri öz yoldaşına (Əbu Bəkrə) dedi: “Qəm yemə, Allah bizimlədir!”** (ət-Tovbə, 40).

**Hədis** **“Mənim və doğru yolda olan raşidi xəlifələrimin sünnəsindən yapışın! Ondan arxa (azı) dişlərinizlə yapışın!”** (Əbu Davud).

**Sual** **Quranın təhrif olunduğunu (dəyişdirildiyini) deyən şəxsin hökmü nədir?**

**Cavab** Quranın təhrif olunduğunu deyən şəxs kafirdir.

**Ayə** **“Şübhəsiz ki, Zikri Biz nazil etdik, əlbəttə, Biz də onu qoruyacağıq.”** (əl-Hicr, 9).

**Hədis** **“Sizə iki şeyi tərk edirəm ki, onlardan yapışsanız heç vaxt haqq yoldan azmayacaqsınız. Bu, Allahın kitabı və peyğəmbərinin sünnəsidir.”** (Malik - «səhih»dir).